Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 14 ” iyul tarixli
206 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin aparılması QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 4-1.4-cü maddəsinə əsasən hazırlanmışdır və tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması və tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin (bundan sonra – Reyestr) aparılması ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

1.3. Qeydiyyata alınma və Reyestrin aparılması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən həyata keçirilir.

## 2. Qeydiyyat

2.1. Qeydiyyat üçün müraciət edən tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyekti (hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və nümayəndəliyi, fərdi sahibkar) (bundan sonra – ərizəçi) yazılı (elektron) formada ərizə təqdim edir. Ərizədə aşağıdakılar göstərilir:

2.1.1. ərizəçi barədə məlumatlar (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialı və nümayəndəliyinin adı, fərdi sahibkar olduqda – soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar, əlaqə nömrəsi, elektron poçt ünvanı);

2.1.2. ünvanı (fərdi sahibkarın ünvanı, hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və nümayəndəliyi olduqda hüquqi ünvanı);

2.1.3. VÖEN-i;

2.1.4. vergi orqanlarında uçota alınmış təsərrüfat fəaliyyətinin həyata keçirildiyi obyektlərin yerləşdiyi ünvanlar;

2.1.5. fəaliyyəti (tütün məmulatının (növü göstərilməklə) idxalı və (və ya) istehsalı);

2.1.6. avadanlıqların alınmasına dair elektron qaimə-fakturanın seriyası və nömrəsi;

2.1.7. avadanlıq bilavasitə ərizəçi tərəfindən idxal edildikdə gömrük bəyannaməsinin sorğu nömrəsi (bəyannamənin sayı çox olduqda ərizəyə əlavə şəklində verilə bilər);

2.1.8. Azərbaycan Respublikasının ərazisində tütün məmulatının istehsalı fəaliyyətinin həyata keçirilməsi müddəti;

2.1.9. ərizəçinin nümayəndəsi barədə məlumat (şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar, əlaqə nömrəsi, elektron poçt ünvanı, etibarnamənin tarixi və müddəti).

2.2. Ərizənin elektron qaydada təqdim olunması üçün ərizəçilər “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təkmil sertifikatlı gücləndirilmiş elektron imzaya malik olmalıdırlar.

2.3. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla ərizəyə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2-ci maddəsində nəzərdə tutulmuş sənədlər əlavə edilir.

2.4. Qanunun 10.2.1-ci maddəsində qeyd olunan şərti təsdiq edən sənədlər qismində malların alqı-satqısına dair müqavilə və elektron qaimə-faktura, avadanlıqlar bilavasitə ərizəçinin özü tərəfindən idxal edildikdə isə idxal olunan malların alqı-satqısına dair müqavilə, invoys və gömrük bəyannaməsi təqdim edilir (elektron qaimə-fakturaların və ya gömrük bəyannamələrinin siyahısı və digər sənədlərin surəti ərizəyə əlavə olunur). Avadanlıqların bir hissəsi ölkə daxilində əldə edildikdə, digər hissəsi isə idxal edildiyi halda, müvafiq sənədlərdəki məlumatlar nəzərə alınır.

2.5. Qanunun 14.2-1.1-ci maddəsində qeyd olunan şərti vergi orqanının arayışı əsasında təsdiq edilir. Arayışın Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə Dövlət Vergi Xidmətindən əldə edilməsi mümkün olduqda, həmin sənəd ərizəçidən tələb edilmir. Arayışın EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı halda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında Dövlət Vergi Xidmətindən tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

2.6. Nazirlik ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq ərizəçinin Qanunun 10.4-cü, 10.5-ci və 14.2-2-ci maddələrinin tələbləri nəzərə alınmaqla, 10.2-ci və 14.2-1-ci maddələrində qeyd olunan şərtlərə uyğunluğunu yoxlayır və subyektin qeydiyyata alınması və ya qeydiyyata alınmasından imtina barədə qərar qəbul edir. Aidiyyəti dövlət orqan və müəssisələrin rəyinin (razılığının) alınması zərurəti yarandıqda “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 19.7-ci maddəsinin müddəaları tətbiq olunur.

2.7. Ərizədə və ona əlavə edilən sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə ərizənin qeydiyyata alındığı

tarixdən 5 (beş) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə ərizəçiyə məlumat təqdim edilir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri izah olunur. Bütün çatışmazlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir.

2.8. Ərizəçi çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman ərizəyə baxılması ilə bağlı müddətin axımı dayandırılır və çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra bərpa olunur.

2.9. Ərizəçi ərizədə və ona əlavə edilən sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.8-ci bəndində qeyd edilən müddətdə aradan qaldırmadıqda müraciətin baxılmamış saxlanılması barədə qərar qəbul olunur. Müvafiq qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə elektron qaydada şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra qeydiyyata alınması üçün təkrar ərizə ilə müraciət edə bilər.

2.10. Nazirlik bu Qaydanın 2.6-cı bəndi ilə müəyyən edilmiş müddətdən gec olmayaraq sahibkarlıq subyektini qeydiyyata alır və ona dövlət rüsumunu (ödənişi) ödəməsi vəzifəsi barədə şifahi qaydada, məktub və ya Reyestrdəki elektron kabinet vasitəsilə məlumat verir.

2.11. Ərizəçi dövlət rüsumunun ödənilməsi ilə bağlı məlumatı aldığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumunu ödəyir və ödənişi təsdiq edən sənədi Nazirliyə təqdim edir.

2.12. Ərizəçi dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi təqdim etdikdən sonra 2 (iki) iş günündən gec olmayaraq ona bu Qaydanın 1 nömrəli əlavəsində göstərilən formada Reyestrdən elektron və ya kağız formada çıxarış şəxsən, sifarişli poçt göndərişi və ya Reyestrdəki elektron kabinet vasitəsilə elektron qaydada təqdim edilir.

2.13. Ərizəçinin qeydiyyata alınmasından “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsində nəzərdə tutulmuş hallarda imtina edilir. Qeydiyyatdan imtina haqqında qərar imtina hallarına istinad edilməklə əsaslandırılmalıdır.

2.14. Qeydiyyatdan imtina olunması ilə bağlı Nazirliyin müvafiq qərarı qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən, elektron qaydada və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir. Ərizəçi imtina haqqında qərardan, habelə inzibati orqanın hərəkətindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

## 3. Reyestrin forması və aparılma qaydası

3.1. Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektləri barədə məlumatların daxil edildiyi Reyestr Nazirlik tərəfindən elektron qaydada aparılır.

3.2. Reyestr Azərbaycan Respublikasının dövlət dilində aparılır. Reyestrə daxil edilən dövlət sirri, kommersiya və (və ya) vergi sirri təşkil etməyən məlumatlar Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir və istifadəçilər üçün açıqdır.

3.3. Qeydiyyat üçün təqdim edilmiş sənədlər və məlumatlar Nazirliyin reyestrində saxlanılır. Reyestrə daxil edilmiş subyektlər barədə müraciət zamanı kağız daşıyıcıda təqdim olunmuş sənədlər “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə saxlanıldıqdan sonra arxivə təhvil verilir.

3.4. “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə uyğun olaraq Reyestrdən elektron formada çıxarışlar kağız daşıyıcıda olan çıxarışa bərabər tutulur və onunla eyni hüquqi qüvvəyə malikdir.

## 4. Qeydiyyatın yenidən rəsmiləşdirilməsi

4.1. Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyatı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 23.1-ci maddəsində nəzərdə tutulmuş hallarda yenidən rəsmiləşdirilir və Reyestr məlumatlarında müvafiq dəyişikliklər edilir.

4.2. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 23.1.1-23.1.3-cü maddələrində göstərilən halda tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyekti və ya onun hüquqi varisi qeydiyyatın yenidən rəsmiləşdirilməsi üçün əsaslar yarandığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq Nazirliyə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsinə uyğun olaraq ərizə ilə müraciət etməlidir. Həmin ərizəyə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 23.3-cü maddəsində nəzərdə tutulan sənədlər əlavə olunur.

4.3. Reyestr məlumatlarında dəyişikliklər ərizənin qeydə alındığı tarixdən 3 (üç) iş günü müddətində rəsmiləşdirilir və Reyestrdən elektron və ya kağız formada çıxarış sahibinə və ya onun hüquqi varisinə təqdim edilir, sifarişli poçt göndərişi və ya Reyestrdəki elektron kabinet vasitəsilə elektron qaydada göndərilir.

## 5. Qeydiyyatın dayandırılması

5.1. Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyatı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsində nəzərdə tutulmuş hallarda Nazirliyin qərarı ilə dayandırılır. Həmin qərarda dayandırılmaya əsas verən hallar və qeydiyyatın dayandırıldığı müddət göstərilməlidir. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1.2-ci və 25.1.3-cü maddələrində göstərilən əsaslar üzrə

qərarda həmçinin qeydiyyatın dayandırılmasına əsas verən halların aradan qaldırılması üçün görülməli olan tədbirlər və qeydiyyatın dayandırıldığı müddətdə həmin halların aradan qaldırılmamasının nəticəsi göstərilməlidir.

5.2. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1.1-ci maddəsində göstərilən əsas üzrə dayandırılmış qeydiyyat sahibkarlıq subyektinin ərizəsinə əsasən, həmin Qanunun 25.1.2-ci maddəsində göstərilən hallar üzrə dayandırılmış qeydiyyat isə həmin halların aradan qaldırılması barədə sahibkarlıq subyektinin təqdim etdiyi yazılı məlumata əsasən Nazirliyin qərarı ilə bərpa edilir.

5.3. Qeydiyyatın dayandırılması və bərpa olunması haqqında qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində sahibkarlıq subyektinə təqdim edilir, sifarişli poçt göndərişi və ya Reyestrdəki elektron kabinet vasitəsilə elektron qaydada göndərilir. Subyekt qeydiyyatın dayandırılması ilə bağlı qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

5.4. Qeydiyyatın dayandırılması və bərpa olunması barədə məlumatlar Reyestrə daxil edilir.

## 6. Qeydiyyatın ləğv edilməsi

6.1. Qanunun 10.7-ci və 14.3-1-ci maddələrində nəzərdə tutulan hallarda Nazirliyin qərarı ilə tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyatı ləğv edilir. Həmin qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində sahibkarlıq subyektinə sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir və ya Reyestrdəki elektron kabinet vasitəsilə elektron qaydada göndərilir.

6.2. Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyatı ləğv edildikdə Reyestrə bu barədə məlumatlar daxil edilir.

6.3. Subyekt qeydiyyatın ləğvi haqqında qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

## 7. Çıxarışın dublikatının verilməsi

7.1. Kağız formada çıxarış itirildikdə və ya zədələndikdə çıxarışın sahibi çıxarışın dublikatının verilməsi üçün Nazirliyə ərizə ilə müraciət edir.

7.2. Nazirlik ərizənin daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində çıxarışın dublikatını hazırlayaraq sifarişli elektron poçt göndərişi və ya Reyestrdəki elektron kabinet vasitəsilə ərizəçiyə təqdim edir.

7.3. Çıxarışın dublikatı itirilmiş və ya zədələnmiş çıxarışla eyni hüquqi qüvvəyə malikdir.

"Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin aparılması Qaydası"na 1 nömrəli əlavə

**TÜTÜN MƏMULATININ İDXALINI VƏ İSTEHSALINI HƏYATA KEÇİRƏN SAHİBKARLIQ SUBYEKTLƏRİNİN REYESTRİNDƏN**

**ÇIXARIŞ**

Qeydiyyata alan orqan: ______________________________________________

Ünvanı:______________________________________________________

İstehsalçı/idxalatçı: ______________________________________________

______________________________________________________________

(hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, VÖEN)

Qeydiyyat tarixi: _______________________________________________

Qeydiyyat nömrəsi: _____________________________________________

Qeydiyyata alınmış fəaliyyəti: ____________________________________

Çıxarışla təsdiq edilir ki, ________________________________________

______________________________________________________________

(tütün məmulatlarının idxalı və (və ya) istehsalı)

fəaliyyətinin həyata keçirilməsi ilə bağlı qeydiyyata alınmışdır.

Vəzifəli şəxs: ___________________________________________________

(soyadı, adı və atasının adı)

Vəzifəsi: ______________________________________________________

____________________

(imzası)

**M.Y.** **QR kod**